

Kənan Hacı

# Hacı İsgəndər

Roman

(əvvəli ötən sayımızda)




**Müəllifdən**

*1918-ci ildə Qafqaz İslam Ordusu Nuru Paşanın komandanlığı altında Azərbaycanın azadlığı uğrunda savaşanda Hacı İsgəndər özünümüdafiə batalyonu yaradaraq ermənilərə qarşı döyüşüb misilsiz fədakarlıq göstərərək Nuru Paşa tərəfindən "Xalq Qəhrəmanı" ordeni ilə təltif edilib. Bolşeviklər hakimiyyətə gəldikdən sonra Hacı İsgəndər daim təqib altında olub. Onu ölümdən o dövrdə Azərbaycana rəhbərlik etmiş Ruhulla Axundov xilas edib. 1937-ci il repressiyası zamanı Ruhulla Axundovla birlikdə Hacı İsgəndər də həbs edilib, həbsdə olduğu müddətdə ona erməni müstəntiqlər tərəfindən amansız işgəncələr verilib. Ağır işgəncələrə dözməyən Hacı İsgəndər həbsxanada vəfat etsə də, onun meyitini ailəsinə verməyiblər. Hacı İsgəndər məzarı olmayan qəhrəmanlarımızdandır. "Hacı İsgəndər" romanı bu böyük türk kişisinin həyat və döyüş yolundan bəhs edir və bu mövzuda yazılan ilk romandır.*

*Hələ uzun illər bundan öncə Buzovna qəsəbəsinin axundu, ilahiyyatçı alim, şair Hacı Soltan Əlizadənin "Azərbaycan dərvişləri və rövzəxanları" kitabında Hacı İsgəndər haqqında məlumata rast gəlmişdim. O zamandan fövqəladə iradəyə, qəhrəmanlıq xüsusiyyətlərinə malik olan bu şəxsiyyətin ömür yolu diqqətimi çəkmişdir. Nə vaxtsa onun haqqında irihəcmli əsər yazacağımı düşünmürdüm. Sonrakı illərdə onunla bağlı xeyli maraqlı faktlar əldə etdim və Hacı İsgəndərin Cümhuriyyət tariximizdə müstəsna rolu, igidliyi, mərdliyi, Nuru Paşa kimi bir sərkərdənin rəğbətini qazanması və faciəli taleyi məni bu əsəri yazmağa sövq etdi. Əlbəttə, bu əsər yazılmazdan öncə Hacı Soltanın təşəbbüsü ilə onun yaşadığı evin qarşısına xatirə lövhəsi vurulub, televiziya verilişlərində haqqında süjetlər gedib, tədbirlər keçirilib. Hacı İsgəndərin geniş xalq kütləsinə tanıdılmasında onun böyük xidmətləri olub. Bu romanın yazılması da Hacı İsgəndərin adının yaddaşlarda qalması üçün növbəti bir təşəbbüsdür. Düşünürəm ki, bu cür şəxsiyyətlər hər zaman xatırlanmalı, onların keçdiyi ömür yolu gələcək nəsillər üçün örnək olmalıdır. Əsəri yazarkən Cümhuriyyət tarixi ilə bağlı çoxlu sayda kitablar oxudum, arxiv materiallarıyla tanış oldum, bu da mənə romanı yazmaqda yardımçı oldu. Bu roman tarixi sənədlər əsasında yazılsa da, hər halda bədii əsərdir və yazıçı təxəyyülündən geniş istifadə olunub.*

*Kitabın araya-ərsəyə gəlməsində böyük əməyi olan həyat yoldaşım, filologiya üzrə fəlsəfə doktoru İlhamə Hacıyevaya, Qafqaz Müsəlmanları İdarəsinin Xəzər rayonu üzrə qazisi, tədqiqatçı alim Hacı Soltan Əlizadəyə, Azərbaycan Yazıçılar Birliyinin Xəzər bölməsinin sədri, şair-qəzəlxan Arif Buzovnalıya xüsusi təşəkkürlərimi bildirirəm!*

***-Yaxına gəlin! Bura, dükanın qabağına!***

***Yusif kişinin çörək dükanının qarşısında izdiham vardı. Bayaqdan bəri divar kimi donub qalmış adamlar hərəkətə gəldi. Yusif kişi izdihamın qarşısına çıxdı, kepkasının günlüyünü qaldırıb camaatı gözdən keçirdi və danışmağa başladı:***

***-Əziz analar, bacılar! Bütün əli silah tutan oğullarımız Nuru Paşanın dəstəsində düşmənə qarşı mərdliklə döyüşür. Üstünlük bizim tərəfimizdədir. Tezliklə Bakı işğalçılardan təmizlənəcək. Lap az qalıb! Lap az! Yaxşı xəbərlər gəlir. Bizimkilər ermənilərin burnunu ovublar, onlara bizim torpaqlarımızda tökdükləri qanların cavabını artıqlamasıyla verəcəklər! Tam arxayın olun!***

***Qadınlardan hıçqırıq səsləri eşidildi, sevincdən ağlayanlar da vardı. Yusif kişi də qəhərlənmişdi. Handan-hana qəhərini boğub sözünə davam etdi:***

"Hələ on-on iki il bundan əvvəl ermənilər mənim qonşum Ağabalanı xəncərlə doğramışdılar. Bədbəxtin silahı da yox idi ki, özünü müdafiə eləsin. Görün bu düdəmələr nə hiyləyə əl atmışdılar? Tüfəng bazarda iyirmi manata satılırdısa, onlar yüz manata, tapança altı manata satılırdısa, otuz manata alırdılar. Nəticədə müsəlmanlarda olan silahların ermənilər tərəfindən belə baha qiymətə alınması, müsəlmanların evlərində nə qədər silah-sursat var idisə, tamamən ermənilərin əlinə keçməsinə səbəb olmuşdu. Evin kişilərini eşiyə çağırıb güllələyir, evlərinə və meyitlərə neft töküb yandırırdılar. Şuşada, Bakıda, digər şəhərlərdə erməni kilsələri əsl cəbbəxanalara çevrilmişdi. Bu məlunlar Allah evindən öz çirkin niyyətləri üçün istifadə edirdilər. Çar Rusiyasının himayəsində olan imkanlı ermənilər o illərdə Türkiyə və İrandan muzdlu erməni döyüşçüləri gətizdirib bizə qarşı vuruşdururdular. İndi də vəziyyət bu cürdür. Amma bu dəfə onların burunları ovulacaq, necə ki, ovulur. Heç kəsin qanı yerdə qalmayacaq, bunu bilin! Hacı İsgəndər üç yüz türk əsgərinə kazarma tikdirib, özü də özünümüdafiə dəstələri yaradaraq onlarla birlikdə döyüşür. Analarım, bacılarım, bu vəhşilər layiqli cəzalarını alacaqlar!

Ələviyyə evə çörəksiz qayıdırdı. Balaca qızcığazın soyuqdan əl-ayağı donmuşdu. Doqqazdan içəri girəndə atası Mircavad ağanı namaz üstə gördü. Ağa namazını qılmışdı, indi də dodaqucu Allahla həsb-hal edirdi:

-Ya Pərvərdigari-aləm, sən özün izzəti-cəlalün xatirinə, bu millətə rəhm et. Özün zalımların cəzasını ver. Hacı İsgəndərin gecəsi-gündüzü yoxdur, qeyrətli oğullarımızı başına yığıb düşmənlə döyüşür. Onu xətadan-bəladan qoru, qollarına güc-qüvvət ver, ya Allah!

Ələviyyə hələ dəqapının ağzında durub atasına baxırdı. Mircavad ağa duasını bitirib cənamazı bükəndə gözü soyuqdan göyərmiş qızına sataşdı. Ələviyyə dilləndi:

-Ağa, Yusif əmi dedi ki, ermənilərin burnunu ovmuşuq, onların axırına lap az qalıb.

Ağa qızına baxıb gülümsədi və ayağa qalxıb cənamazı taxçaya qoydu, yaxınlaşıb qızının başına sığal çəkdi:

-Yusif əmin düz deyir, qızım.

***Ələviyyənin üzündə günahkar və məsum bir təbəssüm vardı. Çörək ala bilməmişdi. Mircavad ağa heç ondan soruşmadı da ki, niyə çörək almadın. Qızın totuq əllərini ovxalamağa başladı və onu sobanın yanına çəkib apardı ki, qızınsın.Seyidin ürəyindən qara qanlar axırdı, cənubdan min-bir zillətlə gəlib burda bir sənətə yiyələnmiş, özünə ev-eşik qurmuşdu, dərziliklə ailəsini dolandırırdı, iki qız, iki oğul atasıydı, bu gün-sabah bir övladı da dünyaya gələcəkdi, oğul-uşaq artdıqca ailənin qayğıları da artırdı. Uşaqlar böyüyüb əlləri çörəyə çatana qədər evin bütün yükü onun üzərindəydi. Bir tərəfdən də tale onları bu cür sınağa çəkirdi, şəhərdə qarışıqlıq idi, hər gün qətllər törədilir, qan tökülürdü. Ağa əhli-əyalının gələcəyindən çox narahat idi. Hər gün namaz üstə milləti üçün Allaha dualar edirdi.***

Bakı qəzasında baş verən qırğınlar görənləri dəhşətə gətirirdi. İnsanlıq hələ belə bir vəhşətin şahidi olmamışdı. Küçələr minlərlə günahsız insanın meyitləriylə dolu idi. Ermənilər bu qırğınlarda heç kəsə, hətta körpələrə də rəhm etmirdilər. Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti antimüsavat kampaniyası adıyla bütün qəza əhalisinə divan tutmuşdu. Bu barədə Fövqəladə Təhqiqat Komissiyasının üzvü A. Kluge təmsil olunan komissiyanın sədrinə "Bakı şəhərinin müsəlman əhalisinə qarşı törədilmiş zorakılıqlara dair iş haqqında" məruzəsində yazırdı: "Yaxşı silahlanmış, təlim keçmiş erməni əsgərləri çoxlu miqdarda pulemyotların müşayiətilə hücum edirdilər. Ermənilər müsəlmanların evlərinə soxulur, bu evlərin sakinlərini qırır, onları qılınc və xəncərlə doğram-doğram və süngülərlə deşik-deşik edir, uşaqları yanan evin alovları içərisinə atır, üç-dörd günlük çağaları süngünün ucunda oynadır, öldürülən valideynlərin südəmər körpələrinə rəhm etmir, hamısını öldürürdülər".

Quba qırğınlarına əli Türkiyədə yüzlərlə türkün qanına bulaşmış Hamazaps rəhbərlik edirdi. Qubaya gələn Hamazaps şəhərdəki məscidin yanındakı meydana gələrək orada toplaşmış müsəlmanlara belə demişdi: "Mən əslən Ərzurumdanam. Uzun müddət türklərlə vuruşmuşam. Mən erməni mənafelərinin müdafiəçisiyəm. Mən sovet hökuməti tərəfindən cəza dəstəsi ilə buraya göndərilmişəm ki, sizdən iki həftə bundan əvvəl burdaöldürülmüş ermənilərin qisasını alım". Hamazaps özünü sığortalama üçün belə danışırdı. Həmin hadisə ermənilərin Bakıdan Qubaya hücumu zamanı baş vermişdi. Yerli əhali yalnız özünü müdafiə etməklə məşğul olmuşdu. Hamazapsın dəstəsi isə 1918-ci ilin ilk beş ayı ərzində təkcə Quba qəzasında üst-üstə 16 mindən çox insanı qətlə yetirmişdi. Bütün bu damarda qan donduran hadisələr Hacı İsgəndərin də rahatlığını pozmuşdu. Kimsə Quba camaatını müdafiə etməli, bütün bu qırğınlara son qoymalı idi. Həmin şəxs isə Əli bəy Zizikski olacaqdı. Əli bəy Peterburqda ali hərbi təhsil almışdı. Gənc Əli təhsilini uğurla başa vurub Qubaya qayıdır və 1917-ci ildə Xüsusi Zaqafqaziya Komitəsi tərəfindən Quba qəzasının komissarı təyin olunur. İndi onun qarşısında çətin vəzifə durudu: yerli əhalinin itirilmiş inamını geri qaytarmaq. Belə ki, Əli bəy Zizikskidən öncə Quba qəzasının komissarı Georgi Leontyev idi. Onun dövründə burda yaşayan ermənilər və ruslar rəhbərlik tərəfindən müdafiə olunurdu. Yerli əhalinin hüquqları isə tapdalanırdı. Nəhayət, əhali ona qarşı üsyan edib Leontyevi Qubadan qovur. Onu Qubadan Xaçmaza kimi əliqandallı, ayaqyalın vəziyyətdə aparırlar.Əli bəylə Hacı İsgəndər Zaqafqaziya Komitəsində tanış olmuşdular. Hansısa bir işdən ötrü yolu bu idarədən düşən Hacı İsgəndərlə Əli bəyin bir neçə dəqiqəlik ayaqüstü söhbətləri qısa zamanda yaxın dostluğa çevrilir. Hacı İsgəndər Əli bəyi dostu Hacı Zeynalabdin Tağıyevlə tanış edir. Bu dostluqdan faydalanan Əli bəy Hacı Zeynalabdin Tağıyevin Yalamadan Giləziyə qədər uzanan balıq vətəgələrində yüzdən artıq insanı işlə təmin edir. Qubadakı xalçaçılıq müəssisələrində qadınların işlə təmin olunmasına köməklik göstərir. Əli bəy öz fəaliyyəti ilə ermənilərin mənfur niyyətlərinə həmişə mane olurdu. Buna görə də ermənilər ona dəfələrlə suiqəsd etməyə çalışır. Stepan Şaumyan bunun üçün yerli erməni icmasına xüsusi göstəriş verir. Əli bəyin aradan götürülməsi üçün Qubada yaşayan casuslar - Armik və Haykanuş adlı ermənilərə tapşırıq verilir. Amma bir şərtlə, Əli bəy bir müsəlmanın əli ilə öldürülməli idi. Bunun üçün Qubada yaşayan Güləli adlı gənc ələ alınır. O, erməni qızı Haykanuşa aşiq idi. Haykanuş isə Güləlini inandırır ki, Əli bəy Zizikski onu sevir. Öz adamını elçiliyə göndərib və Haykanuşu nə yolla olur olsun, əldə edəcəyinə söz verib. Güləli öncə bu böhtana inanmır. Amma sonradan o da erməni qızının hiyləsinə uyur. Lakin bir neçə cəhdə baxmayaraq suiqəsd planı uğursuz olur.

***1918-ci ilin mart ayından Şaumyanın başçılığı altında ermənilər Azərbaycanda genişmiqyaslı soyqırım planı həyata keçirməyə başladılar. Mart ayının sonlarından Bakıda start götürən amansız qətliam artıq bölgələrə doğru genişlənirdi. Əli bəy Quba qəzasında milli şura rəhbərləri və dəstə başçılarını toplayaraq 1500 nəfərlik dəstə ilə daşnak-bolşevik qüvvələrinə qarşı mübarizəyə başladı. Şabrandan Həmdulla əfəndi, Qusardan Möhübəli Kuzunvi, Hatəm ağa Cağarvi, Qubadan Mayıl Zahirov Əli bəyin ətrafında sıx birləşdilər. 1500 nəfərlik ordu ilə Bakı üzərinə yürüş başladı. Daha sonra Dağıstandan Nəcməddin Qotsinski, Bakıdan Hacı İsgəndər öz qüvvələri ilə Əli bəyin köməyinə gəlir. 1918-ci il, aprel ayının 8-də bolşeviklər Xırdalan qəsəbəsi yaxınlığında Əli bəy Zizikskinin ordusunun qabağını kəsdilər. Döyüş 3 gün davam etdi. Sursatı tükənən Əli bəy Zizikski geri çəkilmək məcburiyyətində qaldı.***

(davamı gələn sayımızda)